Salam, qonşum,

Qonşu deyirəm, çünki Ermənistan–Azərbaycan sərhədindən 2 km aralıda yaşayıram. Adım Tatuldur, 32 yaşım var, ixtisasca coğrafiyaçıyam, orduda hərbi xidmət keçmişəm.

Balaca idim, lakin müharibəni, qaranlıq və soyuq illəri xatırlayıram: günlərcə evin zirzəmisində gizlənirdik, gecə–qaranlıqda piyada evlərdən qaçırdıq, bir sözlə, bütün həyatımı ta 1994–cü ilədək aktiv müharibə şəraitində keçib, bundan sonra isə nə müharibə, nə sülh şəraitidir, ki, bu da az təhlükəli deyil. Dostum, bunu ona görə danışıram ki, mənim kim olduğumu biləsən, nə düşündüyümü isə indi danışacağam.

Bütün bunlara baxmayaraq, mən səni düşmən hesab etmirəm. Mən hesab edirəm ki, sən də mənim kimi heç bir şərt irəli sürmədən, günahkarlar axtarmadan yalnız sülh, əmin–amanlıq barədə düşünən insansan. Mən sənə sülh əli uzadaraq təklif edirəm ki, nurlu və rifah gələcək günlərimiz naminə balaca–balaca addımlar ataq. Bizim ailələrimizdən başlayaq, nifrətdən danışmaqdansa dostluqdan söz edək. Dostlarımızla müharibədən yox, sülhdən danışaq, silahı qələmlə əvəz etməyinin vacibliyindən danışaq. Dostum, yəqin anladın ki, bizim bir ortaq məqsədimiz var və bu, sülhdür. Buna nail olmaq üçün bizim çoxlu oxşar fikirlərimiz var. Bilirsən, Marneulidə tez–tez oluram, orda azərbaycanlı dostlarım var, çox rahat ünsiyyət qururuq, alış–veriş edirik. Dostlarım məni çay süfrəsinə dəvət edirlər, mən də onlara erməni siqareti verirəm. Onlarla uzun–uzun oxşarlıqlarımızdan, biri–birinə bənzəyən musiqilərimizdən, mətbəxlərimizdən, xarici görünüşümüzdən danışırıq.

Dost, sənə bir təklifim var, gəl Gürcüstanda görüşək, bir–bizimizin gözlərinin içinə baxaraq əl sıxaq və sülh barədə danışaq.

Sənin qonşun,

Tatul